**«Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli, 155 nömrəli fərmanına və «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli, 170 nömrəli sərəncamına əlavələr edilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 dekabr tarixli, 155 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1001; 2008-ci il, № 12, maddə 1057; 2010-cu il, № 7, maddə 617) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının gömrük orqanlarında ali xüsusi rütbəli vəzifələrin siyahısı»nda «Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi gömrük xidməti general-mayoru» abzasından sonra aşağıdakı məzmunda abzas əlavə edilsin:

| | |
|---|---|
| *Sumqayıt Baş Gömrük İdarəsinin rəisi* | *gömrük xidməti general-mayoru* |

2. «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 1 may tarixli, 170 nömrəli sərəncamının (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995-ci il, № 9, maddə 187; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 1028; 2008-ci il, № 12, maddə 1057) 2-ci bəndində «Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi» abzasından sonra aşağıdakı məzmunda abzas əlavə edilsin:

- *«Sumqayıt Baş Gömrük İdarəsinin rəisi».*

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 21 yanvar 2011-ci il***

***№ 374***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (22 yanvar 2011-ci il, № 15) («VneshExpertService» LLC).***

© *«VneshExpertService» LLC*